KOMIYM

Azərbaycan Respublikası Prezidentinin 3 mart 2014-cü il tarixli sahibkarlığın inkişafına dair əlavə tədbirlərə haqqında Fərmanı ilə əlaqədar

# TƏKLİFLƏR PAKETİ

Bakı, May, 2014

# İÇİNDƏKİLƏR


Səh.

Ön söz ........................................................................................................................ 3

1. Hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi.................................... 3

2. Tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi .................................... 4

3. Elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi .................................................................. 6

4. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi ............................................................................................................ 7

5. Kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi .......................................................................................... 8

6. Korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması ................................................................................................... 11

7. İdxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi .................... 11

8. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi .......................................................................................... 13

# TƏKLİFLƏR PAKETİ

## ÖN SÖZ

Bu Təkliflər Paketi Azərbaycan Respublikası Prezidentinin 3 mart 2014-cü il tarixli sahibkarlığın inkişafına dair əlavə tədbirlər haqqında Fərmanı ilə əlaqədar hazırlanıb. Takliflər Paketi Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Ağentliyinin dəstəklədiyi “Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi çərçivəsində İctimai Birliklər konsorsiumu tərəfindən hazırlanıb: 1) Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu; 2) İqtisadi Tədqiqatlar Mərkəzi; 3) İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi; 4) Kiçik və Orta Müəssiələrin İnkişafına Yardım Mərkəzi; 5) Quba Xalça Dünyası Assosiasiyası; 6) Gəncə Gələcəyə Körpü Gənclər təşkilatı. Təkliflər Paketinin birbaşa müəllifləri bunlardır: Azər Mehtiyev, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin sədri, Eldar Qocayev, beynəlxalq kommersiya hüququ üzrə ekspert, İlkin Qarayev, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzinin prezidenti, Qubad İbadoğlu, İqtisadi Tədqiqatlar Mərkəzinin eksperti, Rövşən Ağayev, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi sədrinin müavini və Sabit Bağırov, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti. Təkliflər Paketinə daxil edilmiş tövsiyələr Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasında bu ilin may ayında keçirilən dörd dəyirmi masada müzakirə edilmişdir. Bu dəyirmi masalarda dövlət qurumlarının nümayəndələri, sahibkarlar, sahibkarlar birliklərinin təmsilçiləri iştirak etmişdilər.

1. Hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi.

Bu gün elektron qeydiyyat üç prosedurdan ibarətdir: 1) Elektron imzanın əldə edilməsi. 3 gün çəkir və 30 AZN tələb edir; 2) On-line qeydiyyat. 3 gün çəkir və pulsuz həyata keçirilir; 3) Möhürün əldə edilməsi. 1 gün çəkir və 4-40 AZN başa gələ bilər, möhürün keyfiyyətindən asılı olaraq. Təhlillər göstərir ki, prosedurlara sərf edilən vaxt mövcud qaydalar şəraitində azaldıla bilər. Həm birinci həm də ikinci proseduru 2 günə endirmək mümkündür. Bu müvafiq xidmətlərin gücləndirilməsini tələb edə bilər.

Prosedurların sayını azaltmaq yalnız birincisini ləğv etməklə mümkün ola bilər. Lakin bu “Elektron imza və elektron sənəd haqqında” Qanun konsepsiyasının dəyişməsini

tələb edir. Və ya elektron qeydiyyat zamanı elektron imzadan imtina edərək başqa alətlərdən istifadə etmək.

Ümumiyyətlə, Azərbaycanda tətbiq edilən model çox sərt xarakter daşıyır. Belə model Rusiyada əsas götürülüb. Məsələn ABŞ-da elektron imza və elektron sənəd məsələsində iqtisadi subyektlər sərbəstdir. Avropa modeli də Azərbaycanınkindən yumşaqdır.

Beləliklə, TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) On-line qeydiyyatın müddəti bir gün azaldılaraq 2 gün səviyyəsində təsdiq edilsin;
2) On-line qeydiyyat zamanı elektron imzadan imtina edilsin;
3) "Elektron imza və elektron sənəd haqqında" Qanun konsepsiyasının əsaslı olması yenidən təhlil edilsin.

2. Tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi.

Tikintiyə icazənin verilməsini tənzimləyən əsas qanunvericilik aktı Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsidir. Məcəllənin 75-ci Maddəsinə əsasən tikintiyə icazəni müvafiq icra hakimiyyəti orqanı verir. Lakin istənilən tikinti obyektinin layihələndirilməsindən başlayaraq onun istismara başlanması anına qədər tikintinin sifarişçisi və podratçısı bir çox icazə və razılıqların alınması məcburiyyətində olurlar. Məhz bu səbəbdən Prezidentin 3 mart 2014-cü il tarixli Fərmanında tikintiyə icazənin yox, icazələrin alınmasına dair tapşırıqlar bir sıra dövlət orqanlarına verilir. Təhlillər göstərir ki, müvafiq icazə və razılıqların alınması prosedurlarının sayı digər ölkələrlə müqayisədə xeyli çoxdur. Məsələn, Dünya Bankının "Doing Business" illik hesabatında tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycanın reytinqi heç də arzu olunan deyil. Bu hesabatda adi anbarın tikintisi və istismara verilməsilə əlaqədar sahibkar 28 prosedurdan keçməlidir (bax: Əlavə1). Bu zaman vaxt itkisi 212 gün, prosedurlarla əlaqəli xərclər isə 14 min AZN-nin üstündədir.

Bu 28 prosedur 8 dövlət qurumu ilə əlaqəlidir:

- 6-sı – Bakı Şəhər İcra Hakimiyyəti ilə;
- 3-ü – Azərsu ASC ilə;
- 2-si – Gigiyena və Epidemiologiya Mərkəzi ilə;

- 8-i – Fövqəladə  Hallar Nazirliyi ilə;
- 3-ü – Ekologiya  və Təbii Sərvətlər Nazirliyi ilə;
- 3-ü – Bakı  Telefon Rabitəsi İstehsalat Birliyi ilə;
- 1-i – Əmək  Müfəttişliyi ilə əlaqəli prosedurlardır.

Təhlillər göstərir ki, həm prosedurların sayı, həm də sərf olunan vaxt və xərclər azaldıla bilər. Nəzərə alsaq ki, tikinti obyekti layihəsini hazırlayan şirkət müvafiq lisenziyaya malikdir və layihəni hazırlayarkən bütün tələb olunan standart və normalara riayət edir, qeyd edilən prosedurlardan bir çoxu artıq görünür.

Beləliklə, TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi təkmilləşdirilməlidir. Tikintiyə icazənin verilməsi normaları tikinti obyektlərinin təsnifatına əsaslanaraq dəqiqləşdirilməlidir. Məcəllənin digər normativ aktlarla (müxtəlif qaydalar) bağlantısı dəqiq və aydın göstərilməlidir. Tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin siyahısı genişləndirilməlidir;
2) Tikintiyə icazələrin alınması prosedurları obyektlərin təsnifatına arxalanmalı və müvafiq veb-resursda əks etdirilməlidir (məsələn, www.icazələr.az veb-səhifəsinin alt səhifəsi olaraq. Sahibkar bu və digər obyektin tikintisinə başlayarkən dəqiq məlumatı əldə etmək imkanına malik olmalıdır: hansı prosedurlardan keçməli, bu prosedurlar üzrə vaxt məhdudiyyəti hansı səviyyədədir, rüsumlar nəyə bərabərdir;
3) Eyni dövlət qurumuna müraciətlərin sayı azaldılmalıdır;
4) Vahid pəncərə sistemi tətbiq edilməlidir;
5) Əsassız qiymətlər (rüsumlar) endirilməlidir;
6) Prosedurlarla əlaqəli günlərin sayı azaldılmalıdır;
7) Layihələndirməyə verilən lisenziyaların dəyəri yüksəldilməlidir. Yəni, əgər bu və ya digər layihələndirmə şirkəti bu və ya digər növ tikinti obyektinin layihələndirilməsi üzrə lisenziyaya malikdirsə, hazırlanmış layihə təkrar ekspertizalara məruz qalmamalıdır.

3. Elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklərin edilməsi

Elektrik təchizatı şəbəkəsinə qoşulmanı tənzimləyən əsas sənəd Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixində 234 saylı qərarı ilə təsdiqlənən "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"dır (bundan sonra Qaydalar). Qeyd edilməlidir ki, bu yeni qaydalar, 2005-ci ildən qüvvədə olan "Elektrik enerjisindən istifadə qaydalari" ilə müqayisədə xeyli mütərəqqidir və bir çox qanunvericilik boşluqlarını və nöqsanları aradan qaldırıb. Bununla belə, təhlillər göstərir ki, yeni qaydalara da bəzi dəyişikliklərin edilməsi vacibdir. Məsələn, Dünya Bankının "Doing Business, 2014" hesabatında göstərilir ki, ölkəmizdə adi anbarın elektrik təchizatı şəbəkəsinə qoşulması sahibkarın 9 prosedurdan keçməsini tələb edir. Bu proses 242 gün çəkir və sahibkara təxminən 28 min AZN-ə başa gəlir (bax: Əlavə 2). Prosedurların sayının, itirilən vaxtın və xərcləin azaldılması adıçəkilən yeni qaydalarda bəzi dəyişiklikləri tələb edir. Eyni zamanda, ümumiyyətlə, elektroenergetika sahəsində bəzi institusional islahatlara ehtiyac var.

Beləliklə, TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nın təkmilləşdirilməsi istiqamətində:

   a. Elektrik təchizatı şəbəkəsinə qoşulma işlərinin görülməsi və müvafiq layihə sənədlərinin hazırlanması xərcləri (məsafə 200 metrdən tələb olunan güc isə 20 kilovatdan artıq olmadığı halda) tam olaraq Enerji Təchizatı Müəssisəsinin məsulyyətinə aid edilsin (Qaydaların 2.19 və 2.21 bəndlərinə müvafiq dəyişikliklər edilsin);

   b. Qaydaların 2.13 bəndinə dəyişikliyin edilməsi ilə Enerji Təchizatı Müəssisəsi tərəfindən Texniki şərtin verilməsi müddət 10 iş günü ərzində təmin edilsin;

   c. Müvafiq yerli icra hakimiyyəti orqanının enerji təchizatı şəbəkəsinə qoşulma proseslərindən uzaqlaşdırılması həm bazar iqtisadiyyatı prinsipləri baxımından, həm də prosedur və vaxt itkisinin azaldılması baxımından məqsədəuyğun görünür;

   d. Qaydaların 3.3.1 bəndində nəzərdə tutulan Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin Dövlət Enerji Nəzarət İdarəsi tərəfindən baxışın məqsədəuyğunluğu nəzərdən keçirilməlidir. Bunun

ləğv edilməsi prosedurların azalmasına xidmət edərdi;

   e. Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması (qoşulma nöqtəsindən tikinti obyektinə qədər məsafə nəzərə alınmaqla) üçün haqq ləğv edilsin (1.10 bəndi).

2) Elektroenergetika sektorunda köklü isahatların aparılması aktual olaraq qalmaqdadır:

   a. Elektroenergetika subyektlərinin ayrılması və rəqabət mühitinin yaradılması təmin edilməlidir;
   b. "Elektroenergetika haqqında" Qanunda enerji istehsalı, nəqli və paylanması ilə əlaqədar fəaliyyət növləri nəzərdə tutulsa da, enerjinin satıcısı kimi ayrıca subyektlərin yaradılması mümkünlüyü göstərilmir. Bu boşluq aradan qaldırılmalıdır;
   c. "Elektroenergetika haqqında" Qanuna topdan və pərakəndə satış bazarlarını tənzimləyən müddəalar əlavə edilməlidir;
   d. Enerji təchizatı sahəsində qiymətləri (tarifləri) müəyyənləşdirən, elektrik və istilik enerjisi bazarını tənzimləyən Müstəqil tənzimləyici orqan yaradılmalıdır.

4. **Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklərin edilməsi**

TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) Torpaq kadastrı məlumatlarının online rejimində əldə olunması imkanlarının təmin edilməsi üçün elektron bazanın yaradılması prosesi başa çatdırılmalıdır;
2) Biznes təyinatlı daşınmaz əmlakın qeydiyyatı "vahid pəncərə" mexanizmi əsasında aparılmalıdır;
3) Qeydiyyat orqanında vaxt itkisini aradan qaldırmaq üçün növbələrin tutulması üçün online sistemi yaradılmalıdır;
4) Ödənişlərin online həyata keçirilməsi imkanı yaradılmalıdır;
5) Mürəkkəb istehsal prosesləri üçün nəzərdə tutulmayan, xüsusilə müxtəlif xidmətlərlə bağlı, sahəcə kiçik ölçülü biznes təyinatlı əmlakın qeydiyyatı üçün tələb olunan sənəd və prosedurların sayı azaldılmalıdır.

5. Kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi

TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) Müstəqil fəaliyyət göstərən özəl kredit bürolarının yaranmasını təmin edən normativ baza yaradılmalıdır. Bunun üçün kredit bürolarının fəaliyyətini tənzimləyən "Özəl kredit büroları haqqında" Qanunun qəbulu sürətləndirilməlidir;
2) Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərinin əsasən mikro, kiçik və orta sahibkarlığın kreditləşdirilməsinə yönəldilməsi təmin edilməlidir. SKMF-nin Əsasnaməsində 2009-cu ildə edilən dəyişikliklərdən sonra Fond daha 10 min manatadək kreditlər təqdim etmir. Halbuki hər zaman maliyyə vəsaitinə çıxışla bağlı ciddi problemlərlə üzləşən kiçik sahibkarlıq subyektlərinin ehtiyacları elə 10 min manatadək olan kreditlərdir. Araşdırmalarımız göstərir ki, son illər Fondun vəsaitlərinin yalnız 15 faizinə qədər hissəsini 50 min manadək olan kreditlər təşkil edir. Fondun vəsaitinin 80 faizindən çoxu hər il iri sahibkarlara (1 milyon manatdan yuxarı kreditlər) verilir. Vəziyyəti dəyişmək üçün Fondun Əsasnaməsində və Fondun vəsaitlərinin istifadəsi Qaydalarında müvafiq dəyişikliklər edilməlidir. Eyni zamanda, Nazirlər Kabinetinin qərarı ilə ölkədə mikro, kiçik və orta sahibkarlıq meyarları yenidən işlənməlidir;
3) İxtisaslaşdırılmış sahə banklarının yaradılması həmin sahələrin inkişafına ciddi təkan verə bilər. Xarici ölkələrin uğurlu təcrübələri göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində (məsələn, kənd təsərrüfatında, tikintidə və s.) sahibkarlığın inkişafı və sahibkarların kreditə əlçatanlığının artırılmasında ixtisaslaşdırılmış sahə banklarının yaradılması əhəmiyyətli rol oynayır. Belə bankların kapitalının formalaşmasında həm dövlət vəsaitləri, həm xarici fondların vəsaitləri, həm də investorların vəsaitləri iştirak edə bilər. Məsələn, hazırda ölkəmizdə kənd təsərrüfatı sektorunun maliyyələşdirilməsi üçün Aqrar İnkişaf Bankının, ixracın stimullaşdırılması üçün İxracın Dəstəklənməsi Bankının tez bir zamanda yaradılması xüsusilə vacibdir;
4) Ölkənin regionlarında, kiçik şəhərlərdə, qəsəbə və kəndlərdə daşınmaz əmlak sahiblərinə onlara məxsus əmlak üzərində mülkiyyət hüquqlarını təsdiqləyən sənədlərin verilməsi sürətləndirilməlidir. Araşdırmalarımız göstərir ki, ölkə iqtisadiyyatına yönəldilən bütün kreditlərin 90 faizinə qədəri Bakı və Abşeron

ərazisinə təqdim edilir. Kreditlərin yalnız 10 faizi regionların payına düşür. Bunun mühüm səbəblərindən biri də yerlərdə insanların sahibi olduqları daşınmaz əmlak obyektləri (ev, torpaq sahələri, bağlar və s.) üzərində mülkiyyət hüquqlarını təsdiqləyən sənədlərin olmaması üzündən kredit üçün girov qoyulmasında üzləşdikləri çətinliklərdir;

5) Daşınar əmlakın reyestri yaradılmalıdır. Xüsusilə, kiçik məbləğli kreditləşmələr üçün girov mexanizminin təkmilləşdirilməsi üçün daşınar əmlakın reyestrinin yaradılması zəruridir. Bunun üçün "Təminatlı əqdlər haqqında" qanun qəbul edilməli və dövlət qeydiyyatına alınmayan daşınar əmlakın və onlardan irəli gələn əlaqəli hüquqların xüsusi reyestri yaradılmalıdır. Xüsusilə, kənd yerlərində məhsuldar heyvanların və məhsuldar ağacların pasportlaşdırılması (reyestrinin aparılması) və qiymətləndirilməsi təmin edilməlidir;

6) BOKT-ların və kredit ittifaqlarının qeydiyyatı asanlaşdırılmalı və onların fəaliyyətində üzləşdikləri problemlər aradan qaldırılmalıdır. Araşdırmalarımız göstərir ki, regionlarda və ucqar kəndlərdə kənd təsərrüfatı istehsalçılarının, fermerlərin, xırda və kiçik sahibkarların kreditləşdirilməsində BOKT-lar və kredit təşkilatları əhəmiyyətli rol oynayır. Hazırda ölkəmizdə bütün kredit qoyuluşlarının yalnız 2-3 faizi bu qurumların payına düşür. Ölkədə 30-dək BOKT lisenziya alsa da, onların az bir hissəsi (12-si) normal fəaliyyət göstərə bilir. Bu, bir tərəfdən BOKT-ların qeydiyatı ilə bağlı çətinliklərlə bağlıdırsa, digər tərəfdən də BOKT-ların banklarla əməkdaşlıqda üzləşdikləri çətinliklərlə bağlıdır. Bu problemlərin həlli sürətləndirilməlidir;

7) Girov təminatı obyektlərinin müstəqil qiymətləndirilməsi sistemi qurulmalıdır. Sahibkarların üzləşdikləri daha bir problem girov təminatı üçün qoyulan daşınmaz əmlakın banklar tərəfindən dəyərindən daha aşağı qiymətləndirilməsidir;

8) Kənd təsərrüfatı istehsalçılarına, fermerlərə verilən kreditlərinin sığortalanması və təminatı fondu yaradılmalıdır. Xarici ölkələrin uğurlu təcrübələrindən biri də kənd təsərrüfatı istehsalı təyinatlı kreditlərin sığortalanması və onlara təminatın verilməsi üçün dövlətin iştirakı ilə "Kənd təsərrüfatı kreditlərinin sığortalanması və təminatı Fondu"nun (bəzi ölkələrdə Agentlik kimi fəaliyyət göstərir) yaradılmasıdır. Bu təcrübədən ölkəmiz də faydalana bilər. Bunun üçün müvafiq qanunvericilik bazası formalaşdırılmalıdır;

9) İslam bankçılığı prinsiplərinin ölkədə tətbiqi imkanları artırılmalıdır. Ölkəmizdə həm bizneslə məşğul olan insanlar, həm də küllü miqdarda yığım vəsaitlərinə malik insanlar arasında İslam dininin çox sayda təmsilçiləri var. Bu insanlar ya dini inancları üzündən öz vəsaitlərini banklara qoymurlar, ya da, bizneslərini genişləndirmək üçün vəsaitə ehtiyacları olsa da banklardan kredit götürmürlər.

Bu insanların iqtisadi potensialını dövriyyəyə cəlb etmək üçün ölkədə islam bankçılığının prinsiplərinə əsaslanan bankların fəaliyyəti təşkil edilməlidir. Bu məqsədlə ayrıca qanun qəbul və ya bank qanunvericiliynə müvafiq dəyişiklik edilməlidir;

10) Kredit təşkilatlarının fəaliyyət göstərmədiyi rayonlarda poçt şöbələrinə kredit ödənişlərini qəbul etmək səlahiyyətləri verilməlidir. Bu ucqar ərazilərdə yaşayan insanların kredit əldə etmək, bank əməliyyatlarını həyata keçirmək imkanlarını genişləndirmiş olar. Kredit ödənişlərinin poçt şöbələri vasitəsilə həyata keçirilməsi həm insanların işini yüngülləşdirər, xərclərini azaldar, həm də bankların kredit müştərilərlə işini asanlaşdıra bilər. Ölkəmizdə poçt şöbələri bəzi maliyyə əməliyyatlarını aparmaq təcrübəsinə artıq malikdir. Buna görə də onların kredit ödənişlərində iştirakı da ciddi çətinliklər yaratmayacaq. Poçt şöbələri vasitəsilə kredit ödənişlərinin təşkili üçün qanunvericilikdə müvafiq düzəlişlər və əlavələr edilməlidir;

11) Regionlarda kreditlərin kartlarla verilməsi və onlayn ödənişlər (xidmətlər) sistemi genişləndirilməlidir. Son illər ölkəmizin bütün regionlarında, hətta ucqar kəndlərdə də İnternet şəbəkəsi genişlənməkdədir. Bu cür müasir texnologiyalar şəraitində banklar kənd yerlərinə verilən kreditləri kartlarla təmin edə bilər. Müştərilərin banklara hesabatları, kreditə xidmət ödənişləri və borc ödənişləri isə kartlarla onlayn qaydasında həyata keçirilə bilər;

12) Problemli kreditlər üzrə məhkəmə işlərinə baxılması müddətlərinin, habelə məhkəmə qərarlarının icrası müddətlərinin qısaldılması. Hazırda ölkədə iqtisad məhkəmələrin və hakimlərinin sayının az olması məhkəmələrə daxil olan işlərə baxılması müddətlərinin aylarla uzanmasına gətirib çıxarır. Bu isə bankları narahat edən əsas problemlərdən biridir. Dünyanın bir çox ölkələrində kreditlərin ödənilməsi ilə bağlı yaranan mübahisələrə və iddialara məhkəmədənkənar baxış sistemi qurulub. Ölkəmizdə də bu təcrübələrdən faydalanmaq məqsədəuyğun olar.

6. Korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması

TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) Korporativ İdarəetmə Məcəlləsi qəbul olunmalıdır;

2) Dövlət və biznes əməkdaşlığına dair qanun qəbul edilməlidir;
3) İnvestorların hüquqlarını qoruyan Ombudsman institutu formalaşdırılmalıdır;
4) Qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə bütün səhmdarlara, o cümlədən minoritar və xarici səhmdarlara ədalətli yanaşma təmin edilməlidir. Şirkətlə bağlı bütün mühüm məsələlərin, o cümlədən şirkətin maliyyə vəziyyəti, mülkiyyəti və idarə edilməsi haqqında məlumatların vaxtında və dəqiq açıqlanması təmin etməlidir. Səhmdarların hüquqlarının pozulmasına görə faktiki kompensasiya almaq imkanları təmin olunmalıdır;

7. İdxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklərin edilməsi

TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) İstehsalçının buraxdığı məhsullara dair beynəlxalq standartlara uyğun keyfiyyət və mənşə sertifikatlarının mərkəzləşdirilmiş şəkildə gömrük orqanlarına təqdim olunması, eləcə də ölkələr arasında standartların qarşılıqlı formada qəbul edilməsi ilə həmin məhsulların idxalını həyata keçirən şirkətlərin belə sənədləri təqdim etmək tələbindən azad olunsun. Bununla əlaqədar olaraq "Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il tarixli 3 nömrəli qərarının 10-cu maddəsində müvafiq dəyişiklik edilsin;
2) Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında Əsasnamənin 2.5. 2.4 yarımbəndində nəzərdə tutulan sənədlərin siyahısına yenidən baxılsın və sənədlərin siyahısından malı gətirən hüquqi və fiziki şəxsin təsis sənədləri, nəqliyyat və sığorta sənədləri, yükləmə-boşaltma üçün hesab və ya nəqliyyat xərci üzrə rəsmi təsdiq edilmiş kalkulyasiya, göndərən tərəfdən gömrük bəyannaməsi qablaşdırma vərəqələri, idxalı müəyyən edilmiş qaydada lisenziya əsasında həyata keçirilən mallar üçün lisenziya çıxarılsın;
3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 №-li qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi

sisteminin tətbiqi qaydaları»nın 2-ci bəndində, eləcə də Qaydalara əlavələr və dəyişikliklər edilməsi haqqında Nazirlər Kabinetinin 17 dekabr 2003-cü il tarixli 159 №-li qərarının 9.4-cü bəndi ilə təsdiq edilmiş nəzərdə tutulan gömrük dəyərinin müəyyən edilməsi üsullarına yenidən baxılsın və bunun üçün gömrük orqanları tərəfindən təqdim olunan qiymət informasiyalarına deklarantların əvvəlcədən və sərbəst çıxışı təmin olunsun. Eyni zamanda təklif olunur ki, gömrük dəyərinin müəyyən edilməsində istifadə olunması mümkün olmadığı hallarda çıxarılan malların gömrük dəyərinin müəyyənləşdirilməsi üçün tətbiq edilən eyni və ya eynicinsli malların qiyməti haqqında məlumatların siyahısı Dövlət Gömrük Komitəsi deyil, İqtisadiyyat və Sənaye Nazirlıyi tərəfindən tərtib və təsdiq edilsin;

4) Yerli məhsulların Avropa İttifaqına ixracı zamanı mənşə, keyfiyyət sertifikatlarının və təsdiqedici kod nömrəsinin verilməsi ASAN xidmətə həvalə olunsun;
5) Mənşə və Uygunluq sertifikatlarının verilməsinin xidmət haqqı tariflərinə yenidən baxılması, tariflərin təyin olunmasına yanaşma prinsipi dəyişdirilsin;
6) Standartlara, sanitariya-gigiyena norma və normativlərinə əlçatanlıq təmin olunsun;
7) Keyfiyyətə nəzarət analizlərinin aparılmasına imkan verən müstəqil laboratoriyalar yaradılsın, mütəxəssislərə təlim və treninqlər keçilsin;
8) Xarici ticarətlə məşğul olan iş adamları dərnəklərinin və asossiasiyalarının yaradılması, onların təmsilçiləri cəlb olunmaqla biznes-hökumət dialoqu keçirilsin;
9) Xarici bazarlara mal və xidmət çıxarmaq imkanlarına malik olan sahibkarlar üçün stimullaşdırıci ixracat paketinin hazırlanması və vahid pəncərə sistemi tətbiq olunsun.

8. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi

Azərbaycan Respublikasının "Müflisləşmə və iflas haqqında" Qanunu 13 iyun 1997-ci il tarixində qəbul edilmişdir (№ 326-IQ). İndiyənədək Qanuna prinsipial fərqlər yaratmayan bir neçə redaksiya xarakterli dəyişikliklər edilmişdir. Qeyd edilə bilər ki, 17 il əvvəl qəbul olunmuş "Müflisləşmə və iflas haqqında" qanunda həm əvvəldən mövcud olan, həm də, ölkədə iqtisadi münasibətlər inkişaf etdikcə müasir tələblərə

cavab verməyən bir çox çatışmamazlıqlar aydın şəkildə nəzərə çarpır. Nəticədə Qanunun tətbiqi qeyri-kafi bir vəziyyətə gəlmişdir. Beləliklə, Qanuna çox ciddi dəyişikliklər edilməlidir. Aşağıdakı təkliflər bir sıra mötəbər beynəlxalq qurumların tövsiyələrinə əsaslanır:

- The European Union Convention on Insolvency Proceedings. 23 November 1995.
- The European Union Regulation on Insolvency Proceedings entered into force on May 31, 2002. The Regulation, with 47 articles, contains the framework for cross border insolvency within the European Union.
- UNCITRAL Model Law on Cross-Border Insolvency with Guide to Enactment and Interpretation. 1997.
- World Bank. The Principles and Guidelines for Effective Insolvency and Creditor Rights Systems. April 2001.
- EBRD. Insolvency Office Holder Principles. *EBRD Principles in respect of the qualifications, appointment, conduct, supervision and regulation of office holders in insolvency cases.* June 2007.

TƏKLİFLƏRİMİZ bunlardan ibarətdir:

1) Qanunun məqsədi, tətbiq dairəsi, müflisləşmə prosesinin mahiyyəti və əsas prinsipləri Qanununda əks olunmalıdır;
2) Qanunun mətni müflisləşmə və iflas prossesinin tam şəkildə (əvvəldən axıradək) tənzimlənməsini təmin etməlidir;
3) Qanunun müvafiq fəsil və maddələrində müflisləşmə kimi qiymətləndirilməli olan halları, sağlamlaşdırma prosesi, müflis elan etmə, iflas prosesinə başlanması, iflas prosesinin başa çatdırılması, bu prosesin başa çatdırılmasının nəticələri kimi məsələlər (həmçının prosesual müddətlər) yenidən işlənməlidir;
4) Müflisləşmə və iflas prosesinə başlanması üçün müraciət edilməsi kreditorun və borclunun hüququ yox, borcudur (öhdəliyidir). Ona görə də, Qanunda bu məqamın bir öhdəlik olması birbaşa göstərilməlidir;
5) Qanunda daha bir yenilik və təkmilləşdirmə - kreditorlar və borclular arasında, məhkəmədən kənar barışıq sazişi bağlandıqda müflisləşmə və iflas prosesinin tənzimlənməsinin tətbiqi və icrası mexanizminə dair müddəaların əlavə olunması olardı;
6) Qanunda (maddə: 2, 14, 16, 35) məhkəmədən kənar müflisləşmə və iflas prosesinin aparılmasına dair ümumi müddəalar olsa da, bunun konkret və

sәmәrәli tәtbiqi vә icrası mexanizmi nәzәrdә tutulmamışdır. Bu boşluq aradan qaldırılmalıdır;

7) Spesifik xüsusiyyәtlәrә malik ayrı-ayrı bazar subyektlәri (mәsәlәn: fiziki şәxslәr, banklar, qeyri-bank kredit tәşkilatları, dövlәt müәssisәlәri vә sair) üçün xüsusiyyәtlәri vә tәsirlәri nәzәrә alınmaqla, mәxsusi müflislәşmә vә iflas qaydaları Qanunda öz әksini tapmalıdır;

8) Müflislәşmә vә iflas haqqında qanunun tәtbiqi tәcrübәsindә problemlәrin olmasını nәzәrә alaraq, Qanunda mövcud prosedurların vә müvafiq qabaqcıl tәcrübәnin ictimai tәşviqi vә prosesi idarә edәnlәrin vә hakimlәrin mütәmadi tәlimlәndirilmәsi (treyninqlәrә cәlb olunması, ixtisaslaşdırılması) ilә bağlı tәdbirlәr hәyata keçirilmәlidir.